
MİRZƏ İSKƏNDƏROV
İXTİSASLANMIŞ AXTARIŞ
VƏ
SEO MƏTN
GSEOgle

# Mündəricat

**Müəllif haqqında** ........ **5**

**Bu kitab necə yarandı?** ........ **6**

**Qısa giriş** ........ **8**

**Google** ........ **9**

**Axtarış sistemləri – Sorğu** ........ **12**

**Axtarış sistemləri nədir və həyatımızadakı rolu** ........ **15**

Axtarış sistemləri ........ 15

Axtarış sistemlərinin həyatımızı asanlaşdırma prinsipi ........ 17

Axtarış sistemləri bizim həyatımızda nə kimi rol oynayır ........ 18

**Adi və populyar texnikalardan istifadə edərək böyük nəticələr əldə etmək** ........ **19**

Kitab axtarışı ........ 21

Video/Film axtarışı ........ 23

MUSİQİ axtarışı ........ 26

OYUN axtarışı ........ 28

µTorrent ........ 30

Ünvanın yeri ........ 32

**Google Search Tools** ........ **33**

Səhifə axtarışı ........ 35

Şəkil axtarışı ........ 37

Video axtarışı ........ 39

**Google Operatorları ........ 40**

İstifadə qaydaları ........ 41

Filetype ........ 42

Lang ........ 44

Allintitle ........ 45

Intitle ........ 46

Intext ........ 47

OR ........ 48

Link və Site ........ 49

Related ........ 51

**Axtarış səviyyəsinin gücləndirilməsi üçün əlavələr ........ 52**

Around (yazılmamış sözlərin hesabı) ........ 53

Konkret sözün mövcudluğu ........ 54

Diapazon ........ 55

Kalkulyator ........ 56

Define ........ 57

Time ........ 58

Dırnaq işarələri ........................................................ 59

**Google Xidmətləri ........................................................ 60**

Axtarış ........................................................ 60

GMail ........................................................ 61

Drive ........................................................ 63

YouTube ........................................................ 65

**SEO mətn ........................................................ 67**

Keyfiyyətli və qazanc gətirəcək mətn necə olmalıdır? ................ 67

Title – Səhifənin başlığı ........................................................ 69

Descriptin – Annotasiya/Təsvir ........................................................ 69

Keyword – Açar sözləri ........................................................ 70

H1 – unikal başlıq ........................................................ 70

Content – Məzmun ........................................................ 71

7.6 H2. . H6 – Altbaşlıqlar ........................................................ 72

7.7 Şəkillər ........................................................ 72

7.8 Siyahılar ........................................................ 73

Введите название главы (уровень 3) ........................................ 74

**Motivasiya, İnkişaf və Texnologiya ........................................ 75**

# *Müəllif haqqında:*

Mən **MİRZƏ İSKƏNDƏROV –** gənc yazar və web-proqramçıyam:
http://ducit.net
İctimai tədbirlərdə tez-tez iştirak edirəm, məqalələr yazır, kitab üzərində çalışıram. Bununla bərabər müxtəlif yönümlü dərsliklər hazırlayaraq "Technet" layihəsini inkişaf etdirirəm. Təbii ki, "Ducit" layihəsi də inkişaf etməkdədir. Kitabxana.net (həm də onlarla ədəbi saytın) və YYSQ-nın (Yeni Yazarlar və Sənətçilər Qurumu) İT, Ducit.net layihəsinin təsisçi-rəhbəriyəm.



Andrey Kosenkonun "İdeal yaddaş üçün 5 addım" kitabının tərcümə edəniyəm.
Mənim haqqımda digər məlumatları buradan əldə edə bilərsiniz:
http://iskandarov.org
İnanıram ki, bu kitab vasitəsi ilə siz, gələcəkdə hətta ən çətin suallara görə narahat olmayacaqsınız və axtarış sistemlərinin necə də əvəz olunmaz olduğunu daim təsdiqləyəcək, vaxtın dəyərli olduğunu hər kəsə deyəcəksiniz. Uğurlar!

## *Bu kitab necə yarandı?*

Kitab hazırda fəxrlə deyə biləcəyimiz kimi, “kitab” deyildi. Əslində bu natamam bir məqalə idi. Onu bitirmək üçün ideyalar az olduğundan arxivlərimin birində qalmışdı. Günlərin birində ən sadə suallara görə natamam məqalə kitab şəklində hazırlanmağa başlandı. Bunun əsas səbəbi isə belədir:




Hər zaman ki, kimi boş vaxt tapanda kifayət qədər reytinqi olan vap-forumların birində olurdum. Gündə 20-30 mövzu açılırdı ki, bununda 40-60 faizi sadə suallarla dolu idi. Onların bəzilərini  cavablandıraraq çıxırdım. Və çoxdandır unutduğum məqaləni fikirləşir, onu tamamlamaq üçün imkan axtarırdım. Çox güman ki, kitab sizin qarşınızdadırsa, deməli, vaxt tapa bilmişdim...

Təbii ki, sizi maraqlandıran, əsas sayıla bilən bir sual:

– 40-60% adlandırdığın suallardan bir neçəsini deyə bilərsənmi?
– Həm də, yaza bilərəm. Hətta cavabla:

1. Sual: Konstruktor saytlarını necə  qurmalı? Cavab: Konstruktor, ona görə, yaradılıb ki, proqramlaşdırma dilini bilməyən şəxs ondan istifadə etsin. Yəni

yaradılması sadədir (Sualın cavabına digər cavab: Video-dərslər təqdim edirəm).
2. S: Logo necə hazırlayım? C: Saytlar təklif edərdim, həm də axtarış üçün açar sözlərini göstərərdim.
3. S: Çat necə qurmalı? C: Məsləhətim bu haqda olan məqaləm, amma istifadəçini razı salmaq üçün video-dərs.
Və s.
Təbii ki, bu suallar sizin üçün də çətin görünə bilər.
Amma narahat olmağa ehtiyac yoxdur!
Siz silahlanmış cəngavər kimi hər gün "Google"dan istifadə edəcəksiniz.

# Qısa giriş

İlk öncə bir qədər axtarış sistemlərin tarixindən bəhs edəcəm. Buraya həm də sizə nəyin lazım olacağı haqqında bilgiləri təqdim edəcəyəm.
Google haqqında qısa yazıdan sonra isə adi texnikalardan istifadə edəcəyik. Burada istifadə olunacaq sözlərin yazılma qaydaları və üsulları göstəriləcəkdir.




Google ilə bağlı sorğudan növbəti başlıq isə “Google”un təqdim etdiyi alətlərdən istifadə necə baş verdiyini öyrənəcəyik.
Ondan sonra operatorlardan istifadəyə həsr olunacaq.
Əlavə funksiyalar unudulmayacaq, onlar üçün xüsusi başlıq altında yazılarla tanış olacasınız.
Google-un xidmətləri də yerləşdiriləcək ki, bu da istifadəçilərin rahatlığını bir qədər genişlədəcəkdir.

## *Google*

Google-dan hər kəs istifadə edir.

Uşaq, tələbə, biznesmen...

Çünki bu rahatlıqdır.

Google XXI əsrin hələ də ən papulyar axtarış sistemi qalmaqda davam edir. Bu günə kimi heç bir qurum Amerikada yerləşən şirkəti qabaqlaya bilməyib. Və onun uğurları hər gün artmaqda davam edir.

Stenford tələbələri olanLari Peyc, Sergey Brin hər zaman sadə, pulsuz və inkişaf edən bir axtarış sistemi yaratmaq istəyirdilər. Və bu baş verdi. Burada dildən asılı olmayaraq hər hansı bir açar sözü daxil edərək öz nəticənizə nail ola bilərsiniz.  Müxtəlif işarələr, operatorlardan istifadə edərək, bir növ, uğura çatmaq olar. Çünki bu sistemə 4 milyarda qədər veb-səhifə daxil edilib. Bu rəqəm hər gündə artır.

Ən başlıca olan sadəliyin nəticəsi kimi Google-un ana səhifəsində "Mən uğurluyam" düyməsi də var ki, ağıllı robotlar məhz göstərdiyiniz açar sözlərə görə sizə ən doğru sayılan nəticəni qaytaracaq ki, bu da

sizin uzun-uzadı müxtəlif səhifələrdə vaxt itirməyinizin qarşısını alacaqdır.

Google-un təqdim etdiyi axtarış sistemi, şəkillər, videolar hostinqi, fayllar üçün bulud sistemi, sosial şəbəkəsi, e-poçt, mətn redaktoru, bloq, tərcümə, avtomatik məktub göndərişi kimi bir çox digər xidmətləri mövcuddur. Bu da yaşından, irqindən asılı olmayaraq hansı bir istifadəçini qane edə bilər. Odur ki, praktiki olaraq hər kəsin ən azı GMAIL hesabı vardır.

Google-un istifadəçi rahatlığı üçün gördüyü işlər hər bir yerdə işlədilir. Buna görə də, onun müsbət tərəfləri mümkün olandan da çoxdur. Ən adi e-poçt vasitəsilə siz – bəlkə də, onlarla işləri pulsuz, sürətli şəkildə icra edə bilərsiniz.

Bu kitabda göstərilən hər bir məlumat birbaşa olaraq sizin biznesinizdə, ictimai və ümumiyyətlə hər bir gördüyünüz işlərinizdə sizə yardımçı ola bilər. Google-un axtarış pəncərəsindəki göstərilən seçimlər, ayarlardan başqa bu kitabda müxtəlif operatorlar, əlavə funksiyalarda mövcuddur. Bunların köməyi ilə siz hər bir şeyi edə bilərsiniz.

Kitaba yerləşdirilmiş hər bir məlumat sizin bəlkədə hər gün kompüter qarşısında oturaraq istifadə edəcəyiniz funksiyalar olacadır. Çünki burada kifayət qədər lazımı faktlar göstərilib ki, gün ərzində ən azı bir dəfə axtarış edən insana lazım olacadır.

## *Axtarış sistemləri – Sorğu*

Google Axtarış sistemi Azərbaycanda kifayət qədər tanınır və İstifadəçiləri müəyyən qədər onun xidmətlərindən istifadə edir. Bunun əsasən, gənc nəsillə bağlı olduğu istisnasızdır. Məhz buna istinadən paytaxtımızın iki məktəbində və şəhərin bir neçə parkında kiçik bir sorğu apardım. Sorğunun nəticələri belə idi:

Yaşı **18**-ə dək olanlar arasında sorğu(~**45** nəfər):

İstifadə müddəti: 3-4 il (70%);

Axtardıqları məlumatlar: 45% media fayl; 45% məlumat-inşa; yerdə qalan hissəsi isə oyun və başqa faylları axtarır;

Haqqında bilik: 95% sorğuya cəlb olunanlar bu Google haqqında əlavə-əsas məlumatları yoxdur;

Əsas özəlliyi: Əksəriyyət (85-90%) Sürəti və Effektivliyini dedilər;

Google Operatorları: Çoxluq (95%) bunun vəzifələrini bilmir.

Google Search Tools: 70% tələbələr bunun nə olduğunu bilmir; 30% isə istifadə edir;

Fayl axtarışı: 80% faylın uzantısından istifadə edir, digərləri ilə fayl bazalarından;

Video üçün: 75-80% sorğuya cəlb olunanlar Youtube; yerdə qalan hissə isə Google-dan istifadə edir;

Google Hesabı: Sorğuda cəmi 25%-in GMail hesabı var;

Əlavələr: Yeniyetmələr Google-a əlavə etməli bir şeyin olmadığını dedilər; 5-10 nəfər isə daha çox "Oyunlar" bölümünün əlavə olmasını dəstəklədi

Yaşı **18**-dən yuxarı olanlar arasında sorğu(~**15** nəfər):

İstifadə müddəti: 5-6 il (75-80%);

Axtardıqları məlumatlar: 35% media fayl; 65% məlumat-dərslik; yerdə qalan hissəsi isə müxtəlif faylları axtarır;

Haqqında bilik: 99% sorğuya cəlb olunanlar bu Google haqqında əlavə-əsas məlumatları yoxdur;

Əsas özəlliyi: Əksəriyyət (90-95%) Sürəti və Effektivliyini dedilər;

Google Operatorları: Çoxluq (95%) bunun vəzifələrini bilmir.

Google Search Tools: 65% tələbələr bunun nə olduğunu bilmir; 35% isə istifadə edir;

Fayl axtarışı: 80% faylın uzantısından istifadə edir, digərləri ilə fayl bazalarından;

Video üçün: 75-80% sorğuya cəlb olunanlar Youtube; yerdə qalan hissə isə Google-dan istifadə edir;

Google Hesabı: Sorğuda 65%-in GMail hesabı var;

Əlavələr: Gənclər Google-a əlavə etməli bir şeyin olmadığını dedilər;

Nəticələr çox da məmnunedici deyildi. Amma ümidvaram bu kitabdan sonra bu göstəricilər müsbətə doğru dəyişəcəkdir. Təbii Google-un axtarışdan başqa xidmətlərini əksəriyyət bilmir, amma düşünürəm ki, bunların mövcudluğunu biləndən sonra onlar Google-un özəlliklərindən dayanmadan istifadə edəcəklər.

# 1. Axtarış sistemləri nədir və həyatımızdakı rolu

## 1.1. Axtarış sistemləri

“Netcraft” kompaniyasının veb-monitorinqinə görə 2013-cü ilin 1 yanvar statistikasında 861 379 152 şəxsi bloq və sayt çalışırdı. Ötən ayların statistikasına nəzər salsaq, bu 37% artım deməkdir. Deməli, hər dəqiqə, hətta hər saniyə yeni sayt(lar) yaranır, onlara yeni və yaxud təkrar kontentlər əlavə edilir. Bəs, onları axtarmaq üçün nələr mövcuddur?

Təbii ki, bunun üçün – hər kəsin tanıdığı – Google, Yahoo, Bing, Yandex və sairə kimi axtarış sistemləri mövcuddur. Bəs onların ilok zamanlar necə olduğunu bilmək istəyirsizmi? Əlbəttə!

İnternet şəbəkəsində informasiya resurslarına ilk müraciətlərin təşkili, informasiya resurslarının ünvanları mövzu üzrə qruplaşdırılırması üçün 1994-cü ildə ilk dəfə Yahoo kataloqu yarandı. Daha sonralar isə saytların sayının artması ilə əlaqədar Yahoo layihəsi daxilində axtarış sistemi işə başladı. Bu saytların seçilməsi, tapılması üçün ideal addımlardan biri idi. Amma burada yalnız sistemdən qeydiyyatdan keçən saytlar üzrə axtarış etmək olurdu. Yahoo

kataloqu kifayət qədər iri olsa da, bu yalnız saytların bir qismini əhatə edə bilirdi.
İlk axtarış sistemi 1994-cü ilin aprel ayında Vaşinqton Universitetində Brayan Pinkerton tərəfindən yaradılmış "WebCrawler" olmuşdur.
Sonralar isə Lycos və AltaVista adlı axtarış sistemləri yaradıldı. AltaVista uzun müddət liderliyini saxladı.
1997-ci ildə Sergey Brin və Lari Peyc tərəfindən müasir dövrdə ən populyar axtarış sistemlərindən sayılan Google yaradıldı.
Müasir İnternet mühitində 3 ən populyar, beynəlxalq axtarış sistemi fəaliyyət göstərir: Google, Yahoo və MSN Search (Bing). Axtarış sistemlərinin hər biri öz verilənlər bazasına və alqoritminə malikdir.
Google-un Panda alqoritmi:
Bu alqoritmdə Google:
1. Digər saytlardan götürülmüş və ya bir saytda təkrar yayımlanan səhifələri axtarış zamanı göstərmir;
2. Əgər sizdə unikal yazı varsa, və o digər sizin saytdan kifayət qədər məşhur saytda yayımlanırsa, Google bunu sizin material kimi görmür;
Və s.

## *1.2. Axtarış sistemlərinin həyatımızı asanlaşdırma prinsipi*

Mən bir çox mətn, dizayn proqramlarını işlətməyi bacarır, sualım olanda isə heç adam axtarmağa meyl etmirəm. Çünki adama sual verəndə: mən nə bilim? o nədir ki? dolamısan? – kimi məşhur suallarla qarşılaşırsan. Adam bilmir sualı həll etsin, yoxsa buna başa salsın ki, sadəcə öyrənmək istəyirsən... Ən yaxşı, dəqiq, aydın, dolğun, aktual, "reklamlı"(bunu aradan qaldırmaq olar) olsa da düzgün "Axtarış sistemləri"dir. Alimlər, təhqiqatçılar deyirlər ki, axtarış sistemləri insanı tənbəlləşdirir. – Doğrudur! Amma – bu istisnalar hər yerdə var – sualı birinə yaz, 3 gün gözlə, cavab verəcəkmi, ya yox; get kitabxanaya aç ensiklopediyaları gününü orada keçirərək başının saçlarını ağart, amma nəticən olmasın! Nə qədər real olmasa da günümüzdə belə insanlar var. Onlar ya İnternetdən istifadə etmirlər, ya da ki, sadəcə bunun necə mümkün olacağını anlaya bilmirlər. Hər halda sizin necə İnternetdən istifadə etməyinizə baxmayaraq siz hər vaxt axtarış sistemlərinin necə də "açıq ürəkli" olacağını söyləyəcəksiniz.

## *1.3. Axtarış sistemləri bizim həyatımızda nə kimi rol oynayır.*

Bu sistemlərin həyatımızı necə asanlaşdırdığını öyrəndikdən sonra bir qədər də, onların rolu haqqında məlumat almağınız məsləhətlidir.
Axtarış sistemləri muzdla tutulmuş agentlər kimidir. Yəni hər hansı bir şəxsi izləmək tələb olunursa, və ya onun haqqında bilgi əldə etmək lazımdırsa, agent tutulduğu kimi, onun icra etməli olduğu işləri axtarış edirik. Bu zaman lazım olan – əgər ümumiyyətlə İnternetdə mövcuddursa – məlumat qadjetimizin monitorunda göstərilir.
Digər bir misal kimi, kitabxananı göstərə bilərik. Bir çox vaxtlarda müxtəlif kitablarda olan materialların bir qismi lazım olur. Bunun üçün çox vaxt kitabxanaya müraciət olunur. Amma müxtəlif dillər biliriksə, biz həmin kitabı onlayn digər dillərdə əldə edə bilərik. Və lazım olan yerləri tərcümə edərək öz işlərimizdə istifadəyə başlaya bilərsiniz.
Hər hansı bir kursu keçmək lazımdır? Bunun haqqında məlumatı biz Google-da ala bilərik. Həmçinin onlayn kurs.
Bələliklə, biz bildik:
“Axtarış sistemlərinin həyatımızda izaholunmaz və mümkün qədər böyük rolu var”.

## *2. Adi və populyar texnikalardan istifadə edərək böyük nəticə əldə etmək*

Kitabı yazmağıma səbəblər çox oldu, bəzi qarşıma çıxan sualları oxucularla bölüşmək istəyirəm:

1. Bu filmə harada baxa bilərəm?
2. Bu kitabı necə yükləyə bilərəm?
3. Birdənə oyun var idi e, orada belə eyləyirdilər, Onun adı nə idi?
4. Bu məşhur yaşayırmı?

Və sair, və ilaxır...

Əgər siz də belə suallar veribsinizsə, deməli, bundan sonra bu sualları, bəlkə də sizə verəcəklər. Çünki artıq tamamilə "silahlanaraq" Google kimi məşhur axtarış sistemlərinə daxil olub istədiyiniz mediyanı, sənədi qısa zamanda tapacaqsınız.

**Əsas qeydlər və İzahlar:**

1.0. Axtarış zamanı qrammatik qaydalara ciddi fikir verin;

1.1. Digər dildə axtarış edəcəksinizsə, "Google Translator" xidmətindən istifadə edərək, qrammatik səhvləri düzəliş edin;

1.2. Çox zaman Google-un "qrammatik səhvləri düzəliş" modulu bunu avtomatik edir;
1.3. Azərbaycan dilinin qrammatik düzgünlüyünü aydınlaşdırmaq üçün Dilmanc(.az) və ya əlavə PDF kitablardan (lüğət) istifadə edin.
2.0. İstədiyiniz nəticəyə nail olmaq üçün əlavə dil biliyinizin (məsələn, alman, ingilis və ya rus dili) olması vacibdir;
2.1. Dil biliklərinizi müxtəlif layihələrdə pulsuz iştirak edərək artıra bilərsiniz;
2.2. Dillərdə elimentar biliyiniz var, amma sürətlə yaza bilmirsiz (və ya qrammatik səhvləriniz çox olur)? Bunun üçün "Google Translator" xidmətindən istifadə zəruridir. Əgər siz, məsələn, "Pozhaluysta" yazsanız, xidmət avtomatik onu "Пожалуйста" kimi təklif edəcəkdir.
2.3. Daha dəqiq axtarış üçün “Google tools”dan istifadə edin.

## 2.1. *Kitab axtarışı.*

Daxil olursunuz axtarış sistemlərinin birinə, məsələn, modullara görə – ağıllı tərcümə sistemi, səsli axtarış, sualı tanıma və sairə – Google məsləhətlidir. Tutaq ki, sizə Dan Braunun "Davinçi şifrəsi" kitabı lazımdır (e-şəkildə).
Yazırıq: Dan Brown - Da Vinçi şifrəsi
Doğrudur, sizin qarşınıza müxtəlif linklər çıxacaq, özünüzü itirməyin. Cəsarətli olun! (Yadıma gəlir Wikipedia-da yenicə qeydiyyatdan keçmişdim ki, məqalə əlavə edərkən yazılırdı bu söz). İlk e-ünvana klikləyin. Qarşınınıza kitab çıxmayada bilər, amma əgər çıxsa xoşbəxtsiz! Mümkündür ki, kitab Azərbaycan dilində olmasın, əsası odur ki, dilimizə yaxın olan növbəti dil türk dili var. Və bu dildə kitabın axtarış zamanı müşahidəsi yüzdə-yüz olacaqdır. Əgər, ümumiyyətlə, kitab çıxmayıbsa, axtarış mətninə, dildən asılı olaraq "kitab" və "yüklə" sözlərini əlavə edin. Beləliklə, axtarışın nəticələrində daha çox e-kitablara olacaq. Əgər Azəricə olmazsa, türkcə yazın.
Kitap indir Dan Brown - Da Vinçi şifresi
Bu zaman ilk e-ünvan kitaba ünvanlanacaqdır.
Azərbaycanda Milli Kitabxana sistemləri, az olsa da, var. Məsləhət görəcəyim internet resurslar bunlardır:

Kitabxana.net, Anl.az və belə Virtual Kitabxanaları siz həm də Google-da axtararaq tapa bilərsiniz.
"Elektron Kitabxana" - yazaraq, axtarış edin.
Kitabı sifariş vermək istəyirsizsə, yaxşı olardı ki, nəşriyyatın adını biləsiniz. Bizim üçün bu "Qanun" nəşriyyatıdır. Yazırıq və sifarişə keçirik:
Dan Brown - Da Vinçi şifrəsi Qanun

## *2.2 Video/Film axtarışı.*

Buna, dilimdə, acınacaqlıda olsa, rast gəlməyiniz bir möcüzədir. Çünki Azərbaycan dilinə dublyaj olunmuş filimlər yetərincə olsa da, İnternetdə azlıq təşkil edir. Amma təəssüflənməyə heç bir lüzum yoxdur, əgər xarici dil(Türk dili, İngilis dili və Rus dili filimləri asanlıqla əldə etmək mümkündür) bilirsinizsə, izləməkdə heç bir probleminiz yaranmayacaqdır. Həm də video-klip axtarırsızsa, heç bir çətinlik çəkmədən terabaytlarla yüklənmiş Youtube-dan bu mediya fayllara baxa bilərsiniz. İlk öncə gəlin film axtarışından söhbət açaq. Görək filmi axtarmaq üçün axtarış motoruna nə daxil etmək lazımdır:

Əgər axtaracağınız film Azərbaycan filmidirsə, onda belə daxil edin:

"Adı+ili" film (məsələn, Dolu 2012 film);

Digər dildən dublyaj olunubsa:

**Azərbaycan dili:** "Adı" ("Azərbaycanca dublyaj" – tapılmayanda bu sözü əlavə edin).
**Türk dili**: "Adı" ("türkce dublyaj" – tapılmayanda bu sözü əlavə edin) online izle.
**İngilis dili**: Watch "Adı" Full Movie Free Online
**Rus dili:** "Adı" смотреть онлайн бесплатно
Əlavə olaraq filmləri həm də klient vasitəsi ilə yükləyə bilərsiniz. Bunun üçün axtaracağınız filmlərin adının qarşısına "torrent" yazısını əlavə edin. Nəticədə lazım parametrlərlə olan faylı yüklədikdən sonra onu µTorrent-lə açaraq filmi tam yükləyib izləyə biləcəksiniz. Ətraflı 2.5.
Filmləri bu texnika ilə tapıb izləyə biləcəksiz. Kliplərə gəlincə isə şansınız kifayət qədər yüksəkdir. Çünki Youtube-da kanal açaraq reytinq yığmaq üçün müəyyən adamlar var ki, müxtəlif kliplər paylaşırlar.
Odur ki, klipin adını və müğənninin adını yazaraq axtarış edin. Bir şeyi də nəzərə alın ki, qrammatikaya çox fikir verməsəzdə olar, çünki musiqi kanallarının çoxunda yalnız ingilis hərflərindən istifadə olunur. Bu belə ola bilər:

*Sevda Yahyayeva* – **Sensiz**
İngilis və ya rus dilində olan mahnını axtararkən qrammatikaya diqqətlə fikir verin:
**Maroon 5 - One more night;**
**Schubert "Serenade";**
**ВИА ГРА – А мы с тобой спорим.**

## 2.3 MUSİQİ axtarışı

Musiqi axtarmaq istəyirsinizsə, sadəcə Google-dan axtarış edə bilərsiniz. Amma hazırda operator kompaniyaları öz gəlirlərini artırmaq üçün praktiki olaraq hər bir şeyi pulla satırlar. Siz soruşa bilərsiniz ki, bunun mövzuya nə aidiyyatı var. Mən də sizə tamamən anlaşıqlı dildə cavab verərəm: "Hazırda mobil abunəliklərin güclü SEO (ASO – Axtarış Sistemlərinin Optimizasiyası) siyasəti var. Bu da onların Google kimi axtarış sistemlərində ilk 3 yeri tutmaqlarına səbəb olur, buna görə də, adi bir MP3 fayl axtararkən bilmədən bu xidmətlərə abunə ola bilərsiniz. Bütün operatorlarda ən aktual problem də hazırda budur ki, abunəçiləri bu siyasətə görə onlara daim müraciətlər edir".

Odur ki, diqqətli olun. Musiqiləri siz müxtəlif məşhur servislərdən yükləyə bilərsiniz. Məsləhət görəcəyim servislərdən biri "Get-Tune"dur.

Bu musiqi-hostinqi aşağıdakı ünvanda xidmət göstərir:

http://get-tune.net/

Sayta daxil olaraq axtarış xanasına musiqinin və ya ifaçının adını daxil edin və istədiyiniz nəticəni əldə edin.

İkinci, Youtube video-hostinqindən musiqini yükləyə bilərsiniz.
Bunun üçün istədiyiniz videonun ünvanını bu sayta keçərək, daxil edin:
http://www.youtube-mp3.org
Və "Convert Video" düyməsinə klikləyin.
P. S: Bu servisdə yalnız İngilis-Latın hərflərindən istifadə edərək axtarış edin. Yəni Ü, Ö, Ğ, I, Ə, Ç, Ş kimi hərflərdən istifadə etməyin.
P. S. S: Servisin öz yükləmə-klienti var. İlk dəfə Yüklə (  ) düyuməsinə kliklədikdə .EXE fayl yüklənə bilər, bunu aradan qaldırmaq üçün açılan "Popup"(yeni kiçik) pəncərədən ".mp3 faylı yüklə" düyməsinə klikləmək lazımdır.

## *2.4 OYUN axtarışı*

**Hazırda oyun yükləmək üçün bir çox klientlər mövcuddur. Biz isə yalnız** µTorrent-dən istifadə edəcəyik. Bu klient, fayl yükləmək üçün əvəzsizdir. Proqramı yükləmək üçün: 2.5.
Oyunlar istifadəsinə görə iki yerə bölünür: Lisenziyalı və Lisenziyasız.
Lisenziyalı oyunlar müəyyən məbləğə görə başa gəlir. Bunun üçün Steam, Origin kimi klientlər mövcuddur. Amma ən çox lisenziyasız və ya "Crack" olduğuna görə onlar pulsuz yayılır.*
"Dead Rising 3" oyununu axtarmaq üçün açar sözləri sadədir. Sadəcə ona "torrent " əlavə etmək lazımdır. Amma bu zaman qarşınıza digər torrent klienti çıxarsa, özünüzü itirməyin, geri qayıdın. Unutmayın ki, torrent faylı **µTorrent** üçün 100 KB-dan çox olmur.
Torrent faylların ensiklopediyası kimi bu saytı göstərmək olar:
http://rutracker.org
Burada qeydiyyatdan keçib 500MB-dan böyük olan faylları torrent vasitəsi ilə yükləyə bilərsiniz.
Sadəcə lazım olan oyunu axtarış xanasına daxil edərək Enter ndüyməsini klikləyin. Daha sonra .torrent faylını yükləmək üçün sağ tərəfdə faylın ölçüsünə basın.
Kiçik ölçülü fayl yüklənəndən sonra onu açın və heç

bir dəyişiklik etmədən "OK" düyməsini klikləyin. Beləliklə, yüklənmə başlayacaq. Kompüterə quraşdırılmış/bağlanmış modemin sürətindən asılı olaraq yüklənmə müəyyən bir vaxt tələb edir. Bitdikdən sonra isə açaraq adi quraşdırma əməliyyatını yerinə yetirmək olar.

*Belə hallar qanunla qadağandır.

## 2.5 µTorrent

µTorrent-i yükləmək üçün bu ünvana keçin: http://www.utorrent.com/

Burada “Get µTorrent” düyməsinə klikləyərək növbəti səhifəyə keçin və yükləmə prosesinin sonuncu addımı kimi “Бесплатная загрузка” düyməsinə klikləyin.

Fayl yüklədikdən sonra isə Quraşdırın.




Bu əməliyyatı icra etmək üçün yüklədiyiniz faylı açın və “Təhlükəsizlik Xəbərdarlığı” pəncərəsində “İcra et” düyməsinə klikləyin. Daha sonra “Quraşdırma üzrə master pəncərəsində” “далее” düyməsini basın. Növbəti səhifədədə bunu təkrarlayın. Sonra “Принимаю” düyməsini istifadə edərək lisenziya qaydalarını qəbul edin. Daha sonra isə qısayol parametrlərini dəyişmədən “далее” düyməsini basın, növbəti iki səhifədə seçimləri ləğv edərək “далее”, “Yandex Bar”la

bağlı olan səhifədə ikinci seçimi aktivləşdiririk və bütün seçimləri ləğv edərək yenidən “далее”, sonda isə “Отменить” seçərək “Готово” düyməsinə klikləyirik.

Beləliklə, klient kompüterinizə quraşdırılır!

Qeyd:

1. Torrent faylların həcmi KB-larla ölçülür, yəni geniş həcmə malik olmur.
2. Torrent-lərlə yüklənən fayllar əvvəlcədən internetdə xüsusi Bulud sistemində yerləşdirilmişdir.

## 2.6 Ünvanın yeri

Hər hansı bir ünvanı axtarırsınızsa, çox gözəl olar ki, indeksi biləsiniz. Əks halda sadəcə ünvanı Google-da axtarış zamanı daxil edərək öyrənə bilərsiniz. Burada digər saytlara yönələn səhifələr çıxacaq ki, bu da ünvanların kataloqu olacaqdır. Burada çox zaman müxtəlif servislərin xəritə xidmətləri göstərilir. Əgər dəqiq yeri müəyyənləşdirə bilmirsinizsə, "Google Maps"dan istifadə edə bilərsiniz. Bunun üçün aşağıdakı ünvana brauzerinizdə keçid edin:

http://maps.google.com

Göstərilən onlayn sistemlər sizə kömək etmirsə, Azərbaycanda yaradılmış telefon-sorğu xidmətinə zəng edə bilərsiniz. Burada ünvanı telefonla və ya əksinə, telefon nömrəsi ilə ünvanı öyrənə bilərsiniz. Həm də göstərilən ünvana yaxın yerləri öyrənmək üçün bu xidmət aktualdır.

012 109 – Bu nömrə ilə onlarla servisdən istifadə edə bilərsiniz.

## *3.0 Google Search Tools*

Bu mövzuda, Google-da axtarış zamanı əldə edə bilmədiyiniz səhifələri daha təyinatlı axtara bilərsiniz. Bunun üçün sadəcə lazım olan axtarış sözlərini daxil edərək axtarış edin və "Search tools" ( 

) vasitəsi ilə necə axtaracığınızı adi seçimlərlə təyin edə bilərsiniz.
Bu ayarlarla siz aşağıdakı seçimləri dəyişə bilərsiniz:




1. Səhifənin və ya hər hansı bir media faylın yaranma dövrünü;
2. Yaşadığınız ölkə üzrə şəhəri;




3. Şəkildirsə, ölçüsünü, əsas rənglərini, növünü, istifadə haqqılarını və əlavə olaraq "Şəkillə axtarış"




4. Videodursa, davametmə müddətini, keyfiyyətini, hansı resursda izləməyi təyin edə bilərsiniz.




5. Kitab axtarışı zamanı: kitabın qısa və ya geniş annotasiyasını; kitab/jurnal olmasını və digər anoloji seçimləri düzənliyə bilərsiniz.

və sairə

Bu mövzu çərçivəsində 3 alt-mövzu görəcəksiniz. Buraya hər hansı bir səhifə axtarışı, şəkil, video və qısaca olaraq kitab axtarışından bəhs edilən mövzular daxil ediləcəkdir.

## 3.1 Səhifə axtarışı

Təsəvvür edin ki, bu yaxınlarda bir tədbir reallaşıb və siz həmin tədbirlə bağlı olan bir xəbər axtarırsınız. Bunun üçün tədbirin/layihənin adını Azərbaycan orfoqrafiya qaydalarına uyğun olaraq Google-da axtarış edin. Bizim üçün bu olacaq:

"Bölgələrdən səslər"

Əgər vaxtla bağlı fikirləriniz, yəni əlavə olunmaqla bağlı əlavələriniz varsa, yazın. Biz "Ötən ay" kimi qeyd edirik. Beləliklə, istədiyimiz nəticəyə nail oluruq.




Bəzən belə hallar olur ki, istədiyimiz faylı əldə edə bilmirik. Bunun səbəbi kimi, axtaracağımız saytın Google indeksləşməsindən kənarlaşdırıldığı və ya axtarış matorlarına uyğunlaşmadığı ola bilər.

Belə hallarda, ya siz heç bir şey tapa bilməyəcəksiniz ya da bir neçə açar sözü əlavə edərək sizə axtarışı sona yetirmək mümkün olacaq.

Məsələn, öz axtarışımıza çatmayanda sadəcə, "kitab" və ya "layihə" sözlərini əlavə edərkən axtarış zamanı səhifələr 10 qat azalacaq amma koordinatlaşdırılmış bir səhifə əldə edəcəksiniz.
Bir şey də var ki, Azərbaycan dilinin qaydalarına əsaslanmayan səhifələrdə çoxluq təşkil edir. Belə səhifələrə kiçik "wap/web-master" saytları, mobil portallar və bir çox resurslar aid ola bilər. Belə hallarda istifadəçi nə axtaracağına əsasən, axtarışını müəyyən edə bilər.
Yəni mobil saytlar və ya Veb-səhifələr üzrə.

## 3.1 Şəkil axtarışı

Burada işiniz bir qədər sadələşir. Şəkil axtarışı zamanı müxtəlif açar sözləri mövcuddur.
Məsələn, əgər iranlı bir yazarın şəklini axtarırsınızsa, yaxşı olar ki, onun adını Fars dilinin hərfləri ilə yazasınız. Bunun üçün "Google Translator" kimi tərcümə sistemi mövcuddur. Oraya keçərək adı Azərbaycan və ya digər dillərdə daxil edərək sizə lazım olan dilə çevirin və axtarış edin:
https://translate.google.com
Buradan məna yaranır ki, axtardığınız məna üzrə dili də təyin etmək lazımdır. Digər misal kimi, Azərbaycanın Gəncə şəhərində yerləşən "Nizami" türbəsinin şəklini misal gətirmək olar. Bunun üçün təbii ki, Azərbaycan dilində axtarış edəcəksiniz. Çox güman, qarşınıza istədiyiniz şəkil çıxacaqdır. Amma keyfiyyəti zəif olacaq. Bunun üçün "Search Tools"dan istifadə edərək şəklin keyfiyyətini, növünü təyin edirik:




Beləliklə, lazım olan şəkli tapırıq.

“Şəkillə axtarış sistemi”ndən istifadə edərək əlinizdə olan amma mənasını anlamadığınız şəkillə axtarış edə bilərsiniz. Bunun üçün axtarış zamanı istifadə etdiyiniz xananın sonunda “Fotoaparat” piktoqramın üstünə klikləyin. Daha sonra ünvan və ya kompüterlə şəkil yükləyin və “Search by image” düyməsinə klikləyin:




Bundan istifadə edərək biz müəyyənləşdirdik ki, şəkildə “itlərdə olan virus” göstərilir. Bir qədər aşağı enib “Visually similar images” vasitəsilə, digər oxşar şəkilləri əldə edə bilərsiniz.

Əgər bu üsullarla şəkili tapa bildinizsə, növbəti mövzuya keçək.

## 3.2 *Video axtarışı*

Bu mövzuda “Dolu” adlı bir Azərbaycan filmini axtaracayıq.

İlk öncə parametrləri düzənləyək:

Bizə 20 dəqiqədən çox davam edən; yüksək keyfiyyətli və “Youtube”da izləmək üçün video lazımdır; bunun üçün parametrləri şəkildəki kimi təyin edirik:




Burada şəkildən gördüyünüz kimi, dövrü təyin etməmişik. Çünki film 2012-ci ildə çəkilib Google-un ayarları isə bir ildən çox vaxta görə axtarış etməyə icazə vermir. Amma bu parametrdən istifadə etmədiyimizə görə, o bizə istədiyimiz nəticəni qaytarır.

Axtarış zamanı istədiyiniz video faylı tapmırsızsa, “youtube.com” seçənəyini ləğv edə bilərsiniz. Nəticədə, axtarış həm Azərbaycan, həm də dünya medyasında gedəcək.

Əgər son əlavə olunmuş video axtarırsızsa, tarixi əlavə edə bilərsiniz, beləliklə, sizin dəqiq məlumatınıza görə istədiyiniz video çıxacaq.

# 4 Google Operatorları

İlk öncə, gəlin araşdıraq operator nədir. Operator axtarışın daha da təyinatlı olmasına yardım göstərən bir axtarış parametridir. Yəni siz kitab axtararkən və ya səhifənin hansı dildə olduğunu təyin edərkən xüsusi operatorlardan istifadə edirsiniz. Bu operatorlar eyni ilə, Google Tools-un təqdim etdiyi parametrlərə oxşayır. Amma "Google Tools" artıq sistemə yerləşdirilib və istifadəsi hər kəs üçün açıqdırsa, operatorlar açıq olaraq sistem ayarları kimi göstərilməyibdir. Onlardan istifadəni isə hər bir insan bilmir.
Bu mövzular toplumunda müxtəlif operatorların vəzifələrini və misal üzərində öyrənəcəksiniz.

## *4.1 İstifadə qaydaları*

Operatorlardan istifadə sadədir. Sadəcə axtarış zamanı daxil edəcəyiniz mətnin sonuna operatoru daxil edirsiz və qoşa nöqtə ilə parametrləri əlavə edirsiz. Məsələn:

Dan Brown – "Da Vinçi Şifrəsi" filetype:PDF

Burada "Filetype" operator; "PDF" parametr;

Boşluqdan sonar isə müəyyən açar sözləridir.

İstifadə zamanı bir neçə operator bir-biri ilə də işlənə bilər. Məsələn:

Dan Brown – "Da Vinçi Şifrəsi" filetype:PDF lang:tr

Operatorların mənalarını yaxşı anlamaq üçün növbəti mövzuları yaxşı oxuyun.

## 4.2 *Filetype*

Burada “filetype” operatorunu araşdıracağıq.
File – fayl; type – növ deməkdir. Bu operatorla axtarış zamanı nəticələrin yalnız göstərəcəyimiz fayl növü olmasında bizə yardımçı olur. Google-un dəstəklədiyi bəzi fayl növləri aşağıdakılardır:

| | | |
|---|---|---|
| Mətn formatının uzantısı (.rtf, .wri) | Miqyasların vektor qrafiki (svg) | Mətn (.txt, .text) |
| Adobe PDF | Adobe Flash (.swf) | Python (.py) |
| Adobe PostScript (.ps) | TeX/LaTeX (.tex) | XML (.xml) |
| Autodesk Design Web Format (.dwf) | Google Yer Planeti (.kml, .kmz) | GPS eXchange Format (.gpx) |
| Hancom Hanword (.hwp) | C# (.cs) | Basic (.bas) |

| | | |
|---|---|---|
| HTML (.htm, .html) | Java (.java) | Cədvəl OpenOffice (.ods) |
| Microsoft Excel (.xls, .xlsx) | Perl (.pl) | Mətn OpenOffice (.odt) |
| Microsoft PowerPoint (.ppt, .pptx) | Microsoft Word (.doc, .docx) | Prezentasiya OpenOffice (.odp) |

Əlavə buraya digər Proqramlaşdırma dillərinin “Başlanğıc kod”ları daxildir.
Kodlardan istifadə etmək sadədir: açar sözlərindən sonra belə bir operator daha sonra fayl uzantısını daxil edilir: filetype:XML
Burada XML əvəzinə müxtəlif fayl növlərini yaza bilərsiniz.
Daha dolğun axtarış üçün bir neçə operator əlavə olunması tövsiyyə olunur.
Buna oxşar digər operator kimi “mime” (maym) və "ext"operatorlarını göstərmək olar. Onların istifadəsi isə digərlərindən fərqlənmir. məs.:
Good mime :XML
Good ext:PDF

## *4.3 Lang*

Bu operatorla biz axtaracağımız faylın və ya səhifənin dilini müəyyən edirik. Yəni çıxan nəticələri istədiyimiz dilə uyğunlaşdırırıq. Amma çox zaman operator səhifələrlə işləyə bilmir. Yəni yalnız faylları oxuyur.
Operatorun yazılış qaydası belədir:
Açar sözlər filetype:PDF lang:en
Burada operator "filetype" ilə işlədilir və digər operatorlar kimi qoşa nöqtədən sonra parametri əlavə edilir. Sonuncu iki hərf ölkə domen kodunu/dilini bildirir. Dil kodları çox zaman İngilis dilində ilk iki hərfi götürülür (Məs. Azerbaijani – az; Engilish – en). Amma istisna hallarda olur: Turkish – tr; Persian – fa və s.
Dil kodlarını siz Vikipedia açıq ensiklopediyada tapa bilərsiniz. Sadəcə Google-da "İnternet kodları" yazaraq axtarış edin.
Çox zaman isə belə hallar olur ki, Google sizin operatordan istifadə etdiyinizi düşünmür. Və bunun əvəzinə yazdığınız "lang" sözünü nəticələrdə biruzə verir.
Amma siz açar sözlərdə dəqiq məlumat yazıbsınızsa, deməli, Google sistemi harada axtarış etməyi anlayacaq.

## *4.4 Allintitle*

Bəzən belə hallar baş verir ki, dostlarınızın kompüterindən istifadə etdiyinizdə maraqlı bir sayta daxil olursunuz. Və bu saytın başlığında yazılan söz sizin beyninizdə assosiasiya yaratmışdır. Buna görə də həmin sözləri yadınızda saxlamısınız. Amma saytın ünvanını bilmirsiniz.

Narahat olmağa dəyməz! Google-un təqdim etdiyi növbəti operator "Allintitle"dır. Sözün mənası belədir: "Başlıqda olan hər şey". Bununla siz saytın başlığında verilmiş açar sözlərindən istifadə edərək istədiyiniz saytı tapa bilərsiniz.

allintitle:Motivasiya üçün

Əgər saytın başlığını tam bilirsinizsə, bunu operatorsuzda edə bilərsiniz. Bizim halda başlığın yalnız bir hissəsidir. Ağıllı Google botları bizim üçün lazımlı saytı əldə edə bildi.

Bir şeyi də qeyd etmək lazımdır ki, bu operator işlədilərkən, qoşa nöqtədən sonra yazdığınız hər bir söz başlığa daxil olacaqdır.

## 4.5 Intitle

Əvvəlki operatorun analoqudur. Amma burada siz yalnız başlığın ayrı-ayrılıqda seçilmiş bir hissəsini əlavə edirsiniz. Yəni başlıq "Motivasiya üçün Bir addım!" kimidirsə, onda belə axtarış etsəniz istədiyiniz nəticəyə çata biləcəksiniz: intitle:Motivasiya addım

Bu variant ən çox geniş başlığa malik olan saytlara tətbiq olunur. Yəni insan bir dəfə gördüyü başlığı yadda saxlaya bilmir, ondan sadəcə müəyyən bir hissəni yadına sala bilir. Buna görə də "intitle" operatoru əvəzsizdir.

Kiçik başlıq mətnlərinin axtarışı zamanı digər səhifələrin çıxacağı istisnasızdır. Amma biz axtarış etdiyimiz başlığa uyğun istədiyimiz səhifəni tapa bildik.

Bu operatorun əsas üstünlüyü ondadır ki, burada iki nöqtədən sonra yalnız ilk söz başlığa aid edilir. Qalan sözlər isə yalnız digər açar sözləri kimi işlənəcəkdir.

## *4.6 Intext*

Bu operator yalnız axtarışda çıxacaq səhifənin mətnində axtarış etməyi imkan yaradır. Yəni Google-un indeksləşmə apardığı səhifələrdə yazılan mətnlərdə axtarışa uyğun nəticələr çıxarsa, bütün məlumatlar ekrana çıxacaqdır.

Bizim üçün axtarış ünvanı "Kitab dilində yoxsa danışıq?" adlanan bir yazının səhifəsi olacaqdır. Bunun üçün mətnə daxil olan bir abzasda cəmlənən sözlərdən bir-ikisini seçək. Absazda olan cümlə belədir: " Nəyə lazımdır "uje"(hər iki mənada), vsyo, koneçno, nol xolodilnik, pılesos və sairə bu kimi sözlər? ". Burada aşağıdakı sözləri "intext" operatoru ilə axtaraq:

intext: uje, vsyo, pılesos

Axtarış zamanı ilk mətn istədiyimiz səhifəni, yəni "Kitab dilində yoxsa danışıq?" yazısının ünvanını göstərir.

Bundan əlavə "allintext" operatorunu da istifadə etmək olar, amma çox vaxt mətnin hər-hansı bir cümləsi tam yadda qalmadığına görə axtarışda cavabın çıxacağı sual altındadır.

## 4.7 OR

Məlumatları dəqiq bilmək və onları qəbul etmək Google üçün vacibdir. Amma istifadəçilər çox zaman səhvə yol verirlər. Bunun qarşısını almaq üçün Google "OR" operatorunu təqdim edir. Bu operator vasitəsi ilə iki söz arasında "ya, ya da" sorğusunu keçirə bilərsiniz.

Təsəvvür edin siz hər hansı bir məqalə yazırsınız. Və bu zaman sizə Lütfi Zadənin doğum yerini bilmək lazım olur. Amma siz Tehran və Bakı arasında tərəddüddəsiniz. Bunun üçün belə yazaraq axtarış edin:

"Lütfi Zadə Tehranda OR Bakıda"

Bu zaman Google öz operatorunu yoxlayacaq. Və doğru cavaba uyğun olan səhifəyə sizi yönəldəcəkdir. Əlavə olaraq üç, dörd söz arasında tərəddüd edirsizsə, bu sözlərin arasında vertikal sleşdən istifadə edə bilərsiniz. Bunun misalı kimi:

"Lütfi Zadə Tehranda | Bakıda | Londonda"

Beləliklə, istədiyiniz doğru nəticəni əldə edəcəksiniz.

## 4.8 Link və Site

1) Link operatoru vasitəsi ilə hər hansı bir internet səhifəsinin ünvanının nə qədər işləndiyini görə bilərsiniz. Bizim misalda bu Milli.az xəbərlər portalı olacaqdır:
"link:milli.az"
Beləliklə, Google-un ilk axtarış nəticələrində olan səhifələrdə, fayllarda bu sayt göstərilib. Yəni istədiyiniz sayta keçərək portalın ünvanının olduğuna əmin ola bilərsiniz.
Operatorun əsas üstünlüyü bundan ibarətdir ki, siz öz saytınız yaranma tarixindən hazırkı vaxta kimi nə qədər yada salındığını və ya paylaşıldığını müəyyən edə bilisiniz.

2) Site operatoru ümidvaram ki, çoxlarının daima istifadə edəcəyi bir operator olacaqdır. Çünki elə saytlarla qarşılaşacaqsınız ki, orada axtardığınız səhifəni tapmayasınız. Bu çox vaxt saytın axtarış sisteminin işləməməsi ilə bağlıdır. Belə ki, Google bütün səhifələrdə indeksləşmə əməliyyatı apardığından hər hansı bir sayt üzrə axtardığınız zaman hər bir kiçik sözə görə Google sizə nəticə qaytaracaqdır.

Bu operatorun istifadəsi və ya yazılışı belədir:
“söz site:ducit.net”
Burada “söz”ün yerinə hər hansı bir söz əlavə edirsiniz. “site” və qoşa nöqtədən sonra isə axtarış aparacağınız saytın ünvanıını “http://“ və ”www” –siz daxil edirsiniz. Beləliklə axtarışın nəticələri “söz”ün yerinə yazdığınız sözlərlə bağlı olacaqdır.

## *4.9 Related*

Növbəti operator saytların oxşarlığını müəyyən edir. Məsələn siz bir sayt tapmısınız və bu sayt başqa bir sayta oxşadığını düşünürsünüz. Bunu yoxlamaq üçün "related" operatoru mövcuddur. Bu operatorun istifadəsi aşağıdakı kimidir:

"related:milli.az"

Nəticədə çıxan səhifələr yalnız oxşar xəbər portalları olacaqdır.

Beləliklə, siz əgər bir saytda bütün məlumatları oxuyub bitirmisinizsə, yeni bir alternativ sayt kimi bu operatorla siz müxtəlif, kontenta görə isə eyni olan saytları tapa bilərsiniz.

Bu operatorla həm də, saytınıza oxşar səhifələri taparaq kontentinizi (təbii ki, mənbələri göstərərək) zənginləşdirə bilərsiniz.

## *5.0 Axtarış səviyyəsinin gücləndirilməsi üçün əlavələr.*

Operatorlardan əlavə Google bir neçə variantla axtarışa imkan verir. Burada siz istədiyiniz informasiyanı sürətli tapa biləcəksiniz. Sadəcə bir neçə simvol daxil edərək unutduğunuz, ya da ilk dəfə görmək istədiyiniz bir məlumatı bu əlavələrlə Google-un səhifələrinə daşıya biləcəksiniz.
Hər şey sadədir, sadəcə işarələri doğru yazmaq kifayətdir.
Burada görəcəyiniz funksiyaların qısa adları:
Around; Konkret sözün mövcudluğu; diapazon; kalkulyator

## 5.1 Around (yazılmamış sözlərin hesabı)

“Around()” əlavəsi ilə siz unutduğunuz sözlərin miqdarını yazaraq onları tapa bilərsiniz. Bunu aşağıdakı misalda göstərək:
Təsəvvür edin ki, siz hər hasnı bir şeiri axtarırsınız. Amma bu şeirin ilk və son sözlərini yadınızda saxlamısınız. Burada “Around”dan istifadə edərək sözlərin sayını yazaraq istədiyiniz məlumatı tapa bilərsiniz.
Bunu belə göstərmək olar:
“Mənə "cız" AROUND(5) oldu”
Burada Bəxtiyar Vahabzadənin bir şeirindən olan bəndə əsasən misal göstərilmişdir. İlk öncə başlanğıc söz daha sonra əlavə, yəni AROUND və buraxılmış təxmini sözlərin sayı – əslində 6 söz buraxıldığı halda biz buraya 5 yazmışıq bu axtarışın səhv çıxacağına heç bir maneə yaratmır.

## 5.2 *Konkret sözün mövcudluğu*

Məsələn siz bir səhifə və ya fayl axtarırsınız və bu sözün daxilində elə bir söz var ki, onu axtarışda göstərmək üçün digər sözlər işlətməlisiniz. Yəni artıq yazdığınız sözlərlə işlənmir amma həmin sənədə daxil ola bilər.

Bunun üçün yalnız sözün önünə "+" işarəsini qoymaq kifayətdir.

"Motivasiya +Ducit"

Siz həmdə axtarış zamanı bir neçə sözü də əlavə edə bilərsiniz:

"Motivasiya +Ducit +Kompüter"

Əgər bəzi sözlərin axtarış səhifəsində, mətnində olmamasını istəyirsinizsə, "-" işarəsindən istifadə edə bilərsiniz:

"Motivasiya +Ducit +Kompüter -Soyuducu"

Bunlardan əlavə "*" işarəsinin köməyi ilə unutduğunuz sözləri Google-un fikirləşməsinə imkan yarada bilərsiniz. Yəni, məsələn yaddan çıxartdığınız mahnının adını bu funksiya vasitəsi ilə axtarmaq olar:

"* gəlmisən, * il" (- Xoş gəlmisən, təzə il)

Bu funksiya hər zaman sizin işinizə yarayacaqdır.

## 5.3 Diapazon

Bu daha çox rəqəmlərlə işləyən insanlar üçün vacibdir. Bununla siz rəqəmlər arasında olan diapazonlarla axtarış edə bilərsiniz. Diapazon əlavəsinin istifadəsi aşağıdakı kimi göstərilir:
"Noutbuk satılır 900..1500"
Əvvəl lazım olan açar sözləri daxil edilir daha sonra isə diapazon seçilir. Minimum və maksimum rəqəmlər arasında ".." qoyulur ki, bunların arasında da heç bir boşluq işarəsi istifadə olunmur.

## *5.4 Kalkulyator*

Bu əlavə kompüterdə və ya digər qadjetlərdə kalkulyatoru olmayanların çox köməyi olacaqdır. Klaviaturanın və ya mausun köməyi ilə işləyən bu servis praktiki olaraq hər bir əməliyyatı yerinə yetirə bilir.
İstifadəsi isə belədir:
əməliyyatların işarələri: -, +, *, /, !
İlk öncə istədiyiniz ilk rəqəmi daxil edin daha sonra (boşluqla və ya boşluqsuz) əməliyyatı daxil edərək, ona uyğun olaraq rəqəmləri daxil edib etməməyi işarələrə uyğun olaraq müəyyənləşdirin. Bir neçə əməliyyatı belə göstərmək olar:
500-254; 45+21; 15*3; 150/50; 5!;
Burada toplamanı, çıxmanı, vurmanı, bölməni və faktorial rəqəmi tapmaq kimi əməliyyatları yerinə yetirmək olar.
"Axtarış" etdiyinizdən sonra isə avtomatik olaraq Google sizə kalkulyatoru mausla idarə etmək üçün parametrləri ekrana çıxacaqdır.
Əgər kimsə, faktorialın nə olduğunu bilmirsə, bu yazılan rəqəmin ilk natural ədəddən sonuncu rəqəmdə daxil olmaqla bir-birinə vurulur:
Beşin faktorialı 120-dir: 1*2*3*4*5
Faktoriallar müxtəlif olur (ikili və ya Super faktorial - Sf()) amma Google yalnız göstərilən növü dəstəkləyir.

## *5.5 Define*

Bununla siz hər hansı bir sözün mənasını Vikipediya kimi ensiklopediyaya girmədən axtardığınızın mənasın tapmağa sizə yardım göstərir. Xidmət Azərbaycan dilini hələlik dəstəkləməsə də, Rus və İngilis dilində olan məlumatları qaytara bilir.

"Internet define"

Bundan istifadə edərək siz kiçikdə olsa vaxtınıza qənaət etmiş olursunuz.

## *5.6 Time*

Digər ölkələrin saatını və dəqiq tarixini öyrənmək istəyirsinizsə, İngilis dilində, latın hərfləri ilə şəhərin adını və "time" sözünü yazın.

"Baku time"

Şəhərlərin dəqiq İngilis dilində adını öyrənmək üçün Google Translator sistemindən istifadə edərək Azərbaycan dilindən İngilis dilinə seçimini aktivləşdirərək tərcümə edə bilərsiniz.

## *5.6 Dırnaq işarələri*

Dırnaq işarələri Google-da axtarış zamanı sizin daha çıx işinizə yarayacaqdır. Belə ki, bu işarələrdəjn istifadə edərək siz axtarış mətninin yalnız dırnaq içərisinə daxil edilmiş və artdıcıllığı pozulmayan üslubda axtarış edə bilərsiniz. Məsələn:

"Bakı küləklər şəhəridir"

Axtarış nəticəsində yuxarıda göstərilən parametrlər uyğunluq təşkil edir.

# *6.0 GOOGLE XİDMƏTLƏRİ*

## *6.1 AXTARIŞ*

Google-un təqdim etdiyi ən papulyar, əsas xidməti və keçən əsrin 97-ci ilindən fəaliyyət göstərən Axtarış sistemidir. Bununla, siz istədiyiniz məlumatı saniyənin onda üçü sürəti ilə tapa bilərsiniz. Məhz bunun sahəsində müxtəlif biznes adamları, tələbələr, hətta yaşından, millətindən və irqindən asılı olmayaraq hər kəs istifadə edə bilir.
Bu kitabda sözü gedən xidmətlə bağlı bir çox məsələlər araşdırılıb. Əsas başlığın mövzusu digər xidmətləri göstərməkdir.

## 6.2 GMail

Bu Google-un elektron poçt servisidir. GMail servisindən qeydiyyatdan keçərək siz Google-un bir çox xidmətlərinə sahib olacaqsınız. Buraya aşağıdakı xidmətlər daxildir və yalnız bir hissəsidir:

Google Mail
Google Drive
Blogger
Google Plus
Google Play

Əsasən, GMail-dən e-poçt servisi kimi yararlanmaq mümkündür. E-poçtun funksionallığı genişdir. Burada qeydiyyatdan keçmək üçün "https://accounts.google.com/SignUp" səhifəsinə daxil olaraq qısa formasını doldurmaq lazımdır.

Daha sonra " https://mail.google.com/mail/u/0/#settings" ünvanında yerləşən GMail-ın "əsas" ayarlarından istifadə edərək aşağıdakı funksiyaları düzənliyə bilərsiniz:

E-poçtun dili;
Telefon nömrəsi;
Mətnin üslubu;
Qaynar düymələr;
İmza (Hər göndəriləcək məktubun sonunda olan sözlər: sosial şəbəkələr, saytlar, təşəkkür);

Avtomatikcavablama;
Bir çox digər ayarların vasitəsilə, siz öz başqa servisdə qeydiyyatlı e-hesabınızı buraya daxil edə, gələcək məktubların xüsusi qovluğa yönləndirilməsini, offlayn rejimdə istifadəsini dəyişə bilərsiniz.
GMail-ın əsas ayarlarından hesab olunmayan " https://mail.google.com/mail/u/0/#settings/themes" ünvanında yerləşən Mövzular vasitəsilə siz istədiyiniz dizayna uyğun olaraq e-poçtunuza rəng qata bilərsiniz.
Böyük bir biznesdə və ya vacib sənədlərin qəbulunda, ümumiyyətlə, Poçt Servisi kimi GMail əvəzsizdir.

## 6.3 DRIVE

Bu xidmət öyrəşmədiyimiz, bəlkə də heç vaxt eşitmədiyimiz sözlərlə bağlıdır. Bulud anbarı. Bunu başqa cür onlayn-anbar (saxlama yeri) da adlandırmaq olar. Bu şəbəkədə yayılmış bir çox serverlərdə faylların və ya hər hansı onlayn-əlçatan şeylərin istifadəçiyə rahat olan bir yerdə saxlanılmasıdır.
Google Drive sizə fayllarınızın saxlanılması üçün pulsuz 15GB həcmdə bulud sistemi verir. Burada istədiyiniz faylları, GMail hesabınızda olan məktubları saxlaya bilərsiniz.
Xidmətin əsas üstünlüyü praktiki olaraq hər bir cihazda işlədilə bilməsidir. Əsas kompüterinizə lazım olan fayllarınızı yükləyərək onları mobil cihazınızda, planşetinizdə və bir çox qadjetlərdə istifadə edə bilərsiniz. Həm də, cihazınız zədələnərsə və siz məlumatları əldə etmək imkanından məhrum olarsanızsa, Google Drive ilə öz fayllarınıza digər cihazda sadəcə hesabınıza daxil olaraq, əldə edə bilərsiniz.
Bunun digər üstünlüklərindən biri də sənədlərlə işdir. Burada siz Windows ƏS-yə sahib olanlar arasında yayılmış Word və Excel sənədlərini yarada, müxtəlif funksiyalarla düzəliş edə, hətta digər istifadəçilərlə –

qeydiyyatları olmasa belə – göndərə və bir çox digər xidmətlərdən(məs. yükləmək) yararlana bilərsiniz. GMail-dan qeydiyyatdan keçdikdən sonra siz " https://drive.google.com" səhifəsinə keçid edərək aşağı-sol tərəfdə olan "Quraşdır" (Install, Установка)düyməsinə klikləyin və yükləmə prosesini yerinə yetirin.
Kompüterdə və ya Drive-ın ana səhifəsində siz mətn, cədvəl, prezintasiya və bir çox sənədləri yarada bilərsiniz. Bunun üçün qırmızı çərçivə ilə əhatə olunmuş "Yarat" (Create, Создать) dümyəsinə klikləyərək aşağı açılan menyuda istədiyiniz fayl növünü seçin. – Kompüterdə bu Google Drive tərəfindən yaradılan qısayollarla baş verir:




Sənədlərlə iş anolojidir, amma onun bir neçə əlavə funksiyasıda vardır. Buraya faylların paylaşımı və müxtəlif formatlarda kompüterə ötürülməsi daxildir.

## 6.4 *YouTube*

Bu video-hostinqdir. Burada müxtəlif şəxlər özlərinin hazırladıqları videoları internetə yerləşdirirlər. YouTube-un əsas özəlliyi hər kəs üçün açıq olmasıdır. Siz digərlərinin videolarını izləməklə bərabər öz kanalınızı da yarada bilərsiniz. Videoalarınızı oraya Pulsuz yerləşdirə bilərsiniz. Youtube.com səhifəsinə keçirək Yuxarı sağ tərəfdə olan göy fonda yerləşdirilmiş "Giriş" (Login) düyməsinə klikləyərək GMail hesabınız varsa, bir addıma qeydiyyatdan keçə bilərsiniz.

Youtube-un müsbət tərəfləri:

1. Müxtəliflik

Siz Youtube-da müxtəlif formatda, keyfiyyətdə, kontentdə video tapa bilərsiniz. Yükləmələrin çoxluğu hər bir istifadəçiyə özünə görə olan videonu tapmağa imkan yaradır.

2. Qazanc

Siz Youtube-dan qazanc vasitəsi kimi istifadə edə bilərsiniz. Hobbi kimi həftədə iki-üç video yükləyərək bunu biznesə çevirmək olar. Əsas şərt videoların istifadəçi tərəfindən maraqlı qarşılanmasıdır. Doğrusu, hər kəsdə bu alınmır. Amma bunun mümkünlüyü Youtube-un ən böyük müsbət tərəfi hesab olunur.

3. Youtube Google-a məxsus olduğundan ona daxil olmaq Google hesabı ilə mümkündür.
Youtube-dan bir istifadəçi kimi də yararlanarkən sizə, istədiyiniz kanala Abunə olmaq, bəyənmək, şərh bildirmək mümkündür. Hətta istədiyiniz videoya uyğun subtitr tərcümə edə bilərsiniz, istədiyiniz videonu Youtube əlfəcininə əlavə edib sonra izləməkdə mümkündür.
Youtube daima inkişaf edir, siz də Youtube-un bir hissəsi ola bilərsiniz.

# 7.0 SEO mətn

## 7.1 Keyfiyyətli və qazanc gətirəcək mətn necə olmalıdır?

Zaman-zaman jurnalistlərin sayı artır. Bununla bərabər bloger idealogiyasıda Azərbaycanda inkişaf səviyyəsinə böyük təsir edir. Müxtəlif ölçülərdə olan mətnlər hər gün bir çox xəbər dərgilərində, bloglarda paylaşılır. Dayanmadan Azərbaycan dilli kontent artmaqdadır. Bəs, bundan pul qazanmaq mümkündürmü? Əlbəttə!
Burada infobizneslə bağlı fikirlər olmayacaq. Amma onun inkişafı üçün vacib olan mətnin düzgün, daha doğrusu SEO (Search Engine Optimization (Axtarış Sistemlərinə Optimizə edilmiş)) mətn kimi hazırlanması haqqında olacaq.
Kitabda indiyə qədər axtarış sistemi olan Google-un müxtəlif spesifik cəhətlərini öyrəndiniz. Bəs, "ona uyğun mətn necə yazmalı" sualı yarandıqda nə etməli? – Sadəcə optimizə edilmiş kontent yaratmaq lazımdır.
Sual oluna bilər ki, bu sizə nə verə bilər? – Yerləşdirilmiş sayta çoxlu ziyarətçi və mümkün ola biləcək alıcı.

İndi isə gəlin "Düzgün, SEO-lu mətn necə yazılmalıdır?" – sualına cavab verək.
Öncə bunu anlayın: "Mətn sadəcə oxucu üçün yox, Axtarış mühərrikləri nəzərə alınmaqla yazılmalıdır."
Üç əsas qayda:

1. Mətn unikal;
2. Axtarış tələblərinə uyğun;
3. İnsanlar üçün uyğun olmalıdır.

Mətn yazılmamışdan əvvəl "açar sözlər"in analizi aparılmalıdır. Bunu siz aşağıdakı sayta keçərək edə bilərsiniz:
https://wordstat.yandex.ru
Bu Yandex-in açar sözləri axtarış motorudur. Burada istifadəçilər tərəfindən ən çox istifadə olunan açar sözləri yerlkəşdirilib.
Bundan sonra isə əsas teqlərə əsasən, qramatika və leksikalogiyaya uyğun mətn yazılır.
Teqlər (əgər HTML proqramlaşdırma dilini bilirsinizsə, bunu öyrənmək sizin üçün asan olacaqdır):

## 7.2 Title – Səhifənin başlığı

Saytda yerləşdiriləcək teqlərdən ən əsası “Title”-dır. Əsaslığı isə, axtarış mühərriklərinin axtarışı zamanı saytınızın əsas informasiya mənbəyi sayılır. Ona görə də yazdığınız məqalə saytın/bloqun kontentinə, ən əsası başlığına uyğun olmalıdır. İkinci vacib cəhət kimi onu da unutmaq lazım deyil ki, “Səhifənin başlığında” əsas açar sözləri yazılmalıdır.

## 7.3 Descriptin – Annotasiya/Təsvir

“Description” teqi səhifənin qısa təsvirindən ibarət olur. Axtarış nəticələrində bu annotasiya kimi ayrılır.

“Bu mətn nə haqqındadır?” – sualına cavab verir.

Saytın daha çox istifadəçisinin olmasını istəyirsizsə, burada daha çox açar sözləri verməyə çalışın. Həm də, unutmaq lazım deyil ki, sizin annotasiya digər saytlarda yayımlanan “Description”-larından fərqli olmalıdır. Burada nə qədər çox söz olsa da axtarış sistemləri onu qısaldacaq. Amma 156 söz optimaldır.

## 7.4 Keyword – Açar sözləri

Bu teq keçmiş nəticələri verməsə də, axtarış sistemlərində yalnız mətnin nə ilə bağlı olduğunu təyin etmək üçün istifadə olunur.

Burada 250 işarədən çox olmayaraq, heç bir ayırma (vergül, nöqtə və s.) işarələri istifadə olunmadan, əsas açar sözləri göstərilir.

## 7.5 H1 – unikal başlıq

Burada mətnin nə ilə bağlı olması, bir sözlə onu ifadə edən kiçik başlıq göstərilir. Optimal başlıqdakı işarələrin sayı 40-70 arası olur. Və "H1" teqi mətn səhifəsində yalnız bir dəfə istifadə olunur. Əgər iki dəfə istifadə olunarsa Axtarış sistemləri bunu spam kimi qəbul edir və sayt "qara siyahı"ya əlavə olunur.

Burada "Title" teqində olduğu kimi vacib açar sözləri istifasdə olunur. – Əsas fərq isə sözlərin bir qədər çox ola bilməsidir. Digər fərqini araşdırsaq, bu hər səhifə, mətn üçün məzmundan asılı olaraq müxtəlif olamsıdır.

"H1" mətndə bir dəfə işlənsədə ona uyğun müxtəlif ölçülü başlıqlar alt-başlıqlarla məzmunda yerləşdirilməlidir.

## 7.6 Content – Məzmun

Bu bütün mətni təşkil edir və minimum 400, maksimum isə 2200 sözdən ibarət ola bilər. Bu optimal həcmdir.

Hər bir düzgün mətndə olduğu kimi burada qrammatika və üslub qorunmalıdır. Bütün qaydalara uyğun olmalıdır: abzaslar, vergüllər, nöqtələr yerində işlənilməli, çətin cümlələr ard-arda olmamalı, süjet xəttinə malik olmalı, Mətnin sadə dildə yazıması onun nəinki istifadəçi tərəfindən yaxşı oxunmasına imkan yaradır, həm də onu axtarış maşınları üçün də anlaşıqlı edir.

Unutmaq lazım deyil:

Mətnin 5%-i tamamilə, açar sözlərilə bağlı olmalıdır. Ən azından mətn "Keyword"larla başlamalı və bitməlidir. Mətnin əsas hissəsindədə bunu unutmaq lazım deyil. İlk abzası axtarış sistemlərinə daha yaxşı göstərmək üçün mətn əyri, qalın və ya rəngli ola bilər.

Daha çox istifadə olunan açar sözləri axtarış mühərriklərinin işini asanlaşdırır və ilk səhifədə sizin sayt göstərilir.

### 7.5.1 H2. . H6 – Altbaşlıqlar

2000 işarədən çox olan mətnlərdə bu altbaşlıqların istifadəsi zəruridir. Bunlar informasiyanın axtarışını sadələşdirir və sürətləndirir.

İkinci və üçüncü səviyyəli olan teqlər – H2, H3 – mətndə aktiv istifadə olunur.

Əgər mətndə H1 teqi yazılmayıbsa, digər altbaşlıqlardan istifadə olunmamalıdır. Anoloji hal digər altbaşlıqlarlada baş verir. Yəni H3 başlığı H1, H2 işlənməsə yazıla bilməz.

## 7.7 Şəkillər

Mətnin səhifəsinin doldurulması üçün şəkillər vacibdir, ən böyük vacibliyi isə ona “alt” atribusyası verir. Bu atribusiyanın mənası, şəklin nə ilə bağlı olduğunu aaçar sözləri və sözbirləşmələri ilə ifadə etməkdir.

Şəkil üçün istifadə edilən teqlər arası konkurensiya az olduğundan siz daha çox şəkil istifadə edərək onu axtarış motorlarına optimizasiya edə bilərsiniz. Çalışın mətndə ən azı bir şəkli yerləşdirəsiniz.

# 7.8 Siyahılar

Əgər sizin mətninizdə siyahılardan istifadə olunubsa, çəkinmədən lazımlı teqlərdən yararlanın.

Müxtəlif səhifə, mətn redaktorlarında bu mövcud funksiyalarla verilib, amma sizdə HTML səhifədirsə, bunu aşağıdakı teqlərlə vermək olar:

Rəqəmli siyahı üçün:

```
<ol>
        <li> Bənd 1</li>
</ol>
```

Yeni bənd əlavə etmək üçün:

<li></li> teqləri arasında lazım olan söz yazılır daha sonra bağlanan </ol> teqindən əvvəl qoyulur:

```
<ol>
        <li> Bənd 1</li>
        </<li> Bənd 2</li>
</ol>
```

Adi siyahı:

```
<ul>
        <li> Bənd 1</li>
</ul>
```

Yeni bənd əlavə etmək üçün:

<li></li> teqləri arasında lazım olan söz yazılır daha sonra bağlanan </ul> teqindən əvvəl qoyulur:

```
<ul>
        <li> Bənd 1</li>
        </<li> Bənd 2</li>
</ul>
```

## 7.9 Vacib aspektlər

Yuxarıda göstərilmiş teqlər düzgün, SEO-lu mətn yazmaq üçün düşünürəm ki, ən vacibləridir. Bunların istifadəsi sizi axtarış sistemlərinin birinci sətirlərinə, səhifələrinə çıxarda bilər.
Daha düzgün yazılmış mətn sizin sayta çoxlu insanların gəlməsində böyük rol oynayacaqdır.
Bir şeyi unutmayın: "Düzgün və SEO optimizə edilmiş mətnlər əsasən düzgün yazılış və açar sözləri ilə yaranır".

Paradoks: Çox vacib hallardan biri:
**Azərbaycan zonası üzrə axtarış zamanı daha çox İngilis əlifbasında olan hərflərdən istifadə olunur. Yaddan çıxartmayın! "Description" və "Keyword"də qeyri-düzgün sözlərdən istifadə etməyə çalışın. Məsələn, kompüteri – komp(y)uter, həkim – hekim, düzgün – duzgun, şagird – shagird...**

# Motivasiya, İnkişaf və Texnologiya

Çox yəqin ki, kitabı oxuyub bitirdiniz. Sizi təbrik edirəm, indi siz daha sürətli, optimizə edilmiş, bir növ ixtisaslanmış axtarış bacarığına sahibsiniz!

Sizə növbəti işimi təqdim etmək istəyirəm:

Ducit.net

Bu saytda onlarla video və məqalə cəmlənmişdir! Daxil olaraq istədiyiniz məqaləni pulsuz oxuya, videoları izləyə bilərsiniz. Sizlərə daha dolğun məlumatı verəcək məqsədləri təqdim edirəm:

- Azərbaycanda Dünya Hörümçək Toru – İnternetin inkişaf etdirilməsi;
- Hər bir kəsin, əsasən gənclərin və yeniyetmələrin asanlıqla əldə edə biləcəyi İnformasiya məkanının qurulmasına nail olmaq;
- İnternet bloqçuluq, kompüter mütəxəssisliyi və ədəbiyyat, incəsənət, eləcə də psixologiya və sağlamlıqla bağlı yaranan problemlərin həllinə töhfə vermək;
- Gənc müəllifləri, oratorları, mütəxəssisləri bir ünvana yığaraq məqalələrini, media fayllarını (kitablar, videolar, şəkillər) ictimaiyyətə paylaşmalarını təmin etmək;

- İctimaiyyəti maraqlandıran sualların həll olunması *və s.*

**Bu sayt sizə nə verə bilər?**

Zamanla əlavə edilmiş videolar və məqalələrin köməyi ilə siz kompüteri öyrənə, müxtəlif servislərdən istifadə edə və motivasion dərsliklərdən yararlana bilərsiniz.

Resurs tamamilə pulsuzdur. Yerləşdirilmiş bütün səhifələrə daxil olmaq imkanı var. Azərbaycanda yüksək kontent yaratmaq üçün çalışır. Axtarış zamanı ola bilsin ki, bu saytı görmüsünüz.

Sayta paralel birləşdirilən başqa bir domen adıda mövcuddur:

Motiv.asia

Sayta daxil olaraq öz sualınızı da verə bilərsiniz ki, bu da sizə sualınıza uyğun 3-7 gün ərzində cavab qaytaracaq:

http://ducit.net/sv/

"Sual ver – Azərbaycan!" – layihəsinin məqsədləri:

1. Azərbaycan dili olan internet məlumatların, məqalələrin, e-kitabların, videoların yaradılması;

2. Vətəndaşlarımızın istədiyi məlumatı türkcəmizdə əldə etməsi;
3. Kreativ Gənclik terminin ətrafında toplaşan gənclərin artırılması;
4. İKT məlumatların-dərslərin artırılması;
5. Məhsuldarlıq və Şəxsi İnkişaf haqqında videoların-məqalələrin yazılması;

və s.

Bu kitabda cəmləşən hər bir şeyin əsas məqsədi sizi inkişaf yoluna aparmaqdır!

Beləliklə, sizinlə sağollaşıram.

**Daim uğurlu həyat yolu, layihələr və inkişaf etmək qərarınızda möhkəmlilik arzusu ilə, Təşəkkürlər!**

**"Uğurun, tərəqqinin və Motivasiyanın ən əsas silahı və dostu insanda güclü və sürətli axtarışın olmasıdır"**

**Mirzə İskəndərov**

(ducit.net)